ÖLƏNDƏ BAYRAĞA
BÜKÜLƏCƏYƏM

Ədəbiyyat bütün dövrlər üçün vacib olan ölçülərin – həqiqətin, xeyirxahlıq və gözəlliyin keşiyində dayanmağı ilə, istər-istəməz, özünü siyasətə yaxınlaşdırır.

Ədəbiyyat cəmiyyətin ovqatını əks etdirən, tarix küləklərinin hardan-hara əsdiyini duyan, zamanın gərilmiş əsəblərində hansı havaların çalınacağını qabaqcadan hiss edən bir qüvvə kimi mənəvi həyatımızda həmişə müstəsna rol oynamışdır.

Meydanlara gedən milyonların böyük əksəriyyətinin yolu bir vaxt ədəbiyyatımızın ehtiyatla göstərdiyi ictimai ağrılardan və milli fəlakətlərimizin dərkindən başlanıb.

BU QILINC DA SƏNİN, BU DAŞ DA SƏNİN

Bax, qardaşım, bax
mən də bir güzgü tuturam üzünə.
Öz taleyini göstərirəm özünə,
Min illər
min düşmən aynasında
əyri göstərildin,
Elə deyilsən!
Sən bir qəhrəmansan, kölə deyilsən!

Dünya sənin yaşıdın,
süngülərinin ucunda hürriyyət daşıdın!
Nəfəsində cənnətə çevirdin bozqırları.
Dünyanın səhərinə yüyürdü
boz qurdların.
Göydə Tanrı işığısan,
Yerdə torpağın həvəsi.
Qitədən qitəyə körpü salıb
"Türkəm!" deyən səsin.

Bax, qardaşım, bax!
Ötüken yaylaları
beşik kimi yellənir,

Orxonda, Yeniseydə
laylaların dillənir,
O tarix karvanıdı,
aşır Tanrı dağından,
Altaydan, Ağ dənizə
yol salır sorağından...
İrqinin qanadları
dörd qitəyə gərilib.
Özünü kiçik sanma,
dünya sənə verilib.

Bax, qardaşım, bax!
Haraya üz tutdunsa
apardığın ulu niyyət,
Atlarının dırnağından
göyərib mədəniyyət.
Ox atdın raket oldu –
ulduzlara yüyürdün.
Haqqa qovuşmaq üçün
zülmətlərə yeridin.
Min-min yuva qurmusan
əllərində süslənib,
Millətlər körpə uşaq –
qucağında bəslənib.
Gündoğandan günbatana
bayrağının işığı
Sən haqqın aşiqisən,
xalqım, sən haqqa şığı!

Bax, qardaşım, bax!
Aynadan nə boylanır!
Qılınc gərəkən yerdə
çiçəyə dönməyimiz.
Yurdu tənha buraxıb
yada söykənməyimiz.
Namərd tələ quranda
sözə güvənməyimiz.
Meydan açıb, qan töküb
qardaşı yenməyimiz!

Bax, qardaşım, bax!
Süzülən göz yaşıma,
Mən ad tapa bilmirəm
özümlə savaşıma,
Mənəm qanadlı ata
düşməni mindirən də,
Çatdığım ocaqlara
su töküb söndürən də.
Dünya yanır şam kimi
Pərvanəsi mənəm, mən
Yol verib yolsuz qalan
divanəsi mənəm, mən
Qəm dolu ürəklərin
meyxanəsi mənəm, mən!

Bax, qardaşım, bax!
Bu tarix də sənin, bu haqq da sənin
Göyü yeləninə taxıb gətirən
Qanımı dirildən bayraq da sənin,
Bu qılınc sənindi, bu baş da sənin,
Qılınc işləməyən, qurşun yetməyən,
Ruhumda bir bitməz savaş da sənin!

Bax, qardaşım, bax!
Bir haqq nəğməsi var dünyanı gəzən
Qeyb olub gedəcək
Onu bilməsən!..

1986

NƏĞMƏM

Mənim nəğmələrim hamının deyil,
Hamıya yetəsi ev tikmək çətin.
Mənim danışdığım bu əsəbi dil
Ya dərdin şəklidir, ya da həsrətin.

Ha deyim bir dayan, göz yaşını sil,
Nəğməyə fərqi yox payızdı, yazdı.
Mənim nəğmələrim hamının deyil,
Hamının olsaydı nəğmə olmazdı.

Sevgimdi, qopubdu ürək qanından,
Şərt deyil min çələng toxuya bilsin.
Təki bir kimsəsiz yalqız qalanda
Onu öz-özünə oxuya bilsin.

Mənim fəsillərim əkinlə biçin,
Sözüm də torpaqda xışdı, yedəkdi.
Beş-on toxum olsa əkinçi üçün
Baharda bir zəmi bitirəcəkdir.

Bir az keşikçidi, bir azca çoban,
Haqqı qurd ağzından saldıracaqdır.
Bu yolsuz dünyada bəlkə, bir zaman
Kimisə qolundan qaldıracaqdır.

Zər-ziba içində ürəklər soyuq,
Ona bir çınqı od salsa bəsimdi.
Masalar sındıran israfçılıq yox,
Halal pendir-çörək olsa bəsimdi

Ana dodağında layla da işdi,
Ata dodağında keçmişin səsi.
Mən ömrü dağlardan borc istəmişdim
Qayıtsın o borcun nəğmə zərrəsi.

Sözün də hikməti Allahdan qalan,
Ürəkdən dediyim ürəkdə bitə.
Bir vaxt zümzüməylə keçdiyim yola
Kimsə nəğmən ilə yoldaşlıq edə.

Sınıq ürəkləri ümidlə bəzər,
Birinə su olar, birinə ocaq.
Nəğmən də quş kimi dünyanı gəzər,
Bir quru budaqda dincələr ancaq.

1992

ÖLƏNDƏ BAYRAĞA BÜKÜLMÜRƏMSƏ...

"Ağzından qan iyi gəlir"
Xalq deyimi

Mahnımdan "qan iyi" gəlmirsə əgər,
Bu söz yarışında qələbə çalıb,
Bu söz döyüşündə ölmürsə əgər;
Hər şerim əsgər tək qurban getməyə,
Daşqalaq edilib şəhid olmağa
Hazır deyilsə;
Kəsin bu nəğməni, kəsin yarıda,
Deməli haqqım yox kəlmə kəsməyə!
Bu torpaq üstündə üzü ağlıqla
Əli ürəyində rahat gəzməyə!

Sığallı sözlərdən ətim ürpəşir,
Bağışla, kef-damaq zamanı deyil,
Üzünə yüz üzün möhrünü vuran
"Bal dodaq", "gül yanaq" zamanı deyil.

Xəncərim dəstəksiz, qılıncım qansız,
Sinəm qalxan kimi, çapıq-çapıqdı.
Tikanlı məftillər didib könlümü,
Ən uzun mahnım var,
o Ayrılıqdı!

Kişiyə bu qədər dinclik yaraşmaz,
Bu dərdlər mənimsə,
kef mənim deyil.
Öləndə bayrağa bükülmürəmsə,
Beş arşın təmiz ağ kəfənim deyil.
Önümdə bu qədər uçurum varkən
Kimdənsə mərhəmət uma bilmərəm.
Bu gözdən o gözə işıq düşmürsə,
Gözümü arxayın yuma bilmərəm.

Qolunu çirməyib meydan açmayan
Sözlərim xanımtək ətirlənibsə,
Səngərdən yayınıb, güllədən qorxub
Tərif kölgəsində çətirlənibsə,
Ölən günlərimə yas tutmalıyam!
Döyüş himni kimi doğulmadımsa,
Görüş mahnımı da unutmalıyam!

Mələk cildindəsə cəllad həvəsi,
Sənin gizli davan görükən deyil.
Sözümdən "qan iyi" gəlsə də qorxma,
O qan bağlayandı, qan tökən deyil!

1986

ŞAİRLƏRƏ BORCUMUZ

Bəxtiyar Vahabzadəyə

Arazın tikanlı məftillərdən
sıyrılıb çıxdığı yerdə
Üzü cənuba
"Qardaş!" harayı ağzında donmuş
bir şair heykəli qoymasa
insafı yoxdur bu millətin!

İnsafı yoxdur bu millətin
yaddan çıxarsa əgər
bu gün meydanları silkələyən
"millət", "azadlıq" sözlərini
nə vaxtsa şairlərin ehtiyatlı
pıçıltısından öyrəndiyini.

İnsafı yoxdu bu millətin
Birdən çaşıb unutsa
"xəlqi oyadan əfqanları",
Əsr-əsr sözlə körüklənən
soyuq qanları,

"Dana" başlarda "danə" başı görənləri
Düşməni qılıncdan əvvəl
sözlə öldürənləri?
"Ağıllı dəlilər"
Ürəyindən qan gedən gülməliləri!

...Vətəndən sürülən
Ümidi qəbir divarlarına hörülən,
Dərdi dünyanın belini əyən,
Özü əyilməyən ərlər
Bu gün unudulsa əgər!
Bir mahnıda deyilən kimi
"yaşamaq nəyə dəyər!.."

Bir şair heykəli!..
Araz qırağında... üzü güneyə
dilində "qardaş" harayı,
"Vətən", "Birlik" nidası!
Dünyanın ən uzun ömürlü
heykəlləri
şair heykəlləridi
Qorxunuz olmasın!
Başı buludlara dirənən,
Yurdun hər yerindən görünən,
Qolları Arazla Kür kimi...
Canlı olsun,
ürəyi döyünür kimi!

Bütöv bir qayada yonun heykəli,
Adsız-ünvansız,
Bir aşiq heykəli,
çünun heykəli.
Çəksin könlümüzdən bu dərdi-səri,
toplasın, qoy olsun qomin heykəli.
Bu qayaya dönən kimdi, – sorsalar
Bir ağızdan deyək:
"Mənim heykəlim!.."

YURDUN BAYRAĞI

Əhməd Cavada

Yol ver yurdun bayrağına,
Vaxtın, gücün, ölümün
yendirə bilmədiyi,
Əyrilərin düz yoldan
döndərə bilmədiyi,
Bir haqq bayrağı var əlimdə.
Kimsənin dağına qonmaz,
Kimsənin yaxasına sancılmaz,
Yad küləklər əsib keçə
ürəyimiz kimi açılmaz.

Yol ver yurdun bayrağına!
Qanımı hopduraraq
tutmuşam başım üstə
Gül kimi pardaxlanıb.
Düşmənim baxa-baxa
gözlərindən dağlanıb.
Mən raket əkmirəm ki,
qızıl güldü əkdiyim,
Qızıl gül işığıdı
ürəklərə çəkdiyim.

Yol ver yurdun bayrağına!
Hardan qopubsa
ora dönsün!
Özgə yerində gözü yox,
Öz elində görünsün!
Yelpikləsin məzarını şəhidlərin.
Torpaq da bayraq işığını duyur.
Kişilər yalnız yurdun
bayraq nəğməsində uyuyur...

1987

YAZILMAMIŞ ŞEİRLƏRİM

Neçə yazılmamış şeirlərimi
Atdım meydanların izdihamına.
Qatdım millətimin gur ilhamına.
Bircə söz saxladım "azadlıq" sözü
Dönüb yumruq olmaq öyrətdim ona.

Qul sözün istəyi qalmadı qanda,
Mən bu gün ilhamla qılınc itidən.
Qadınlar meydana od daşıyanda
Var idi şeirlə evdarlıq edən!

Millətin bir sözü, bir yolu varkən
Əqidə alveri qeyrətdən deyil.
Bizimdi kəfəni boynuna geyən,
Kəfən qısqancları millətdən deyil!

Çayxana bayquşu, restoran şiri,
Evinin damında xoruzlananlar.
Bu gün qəhrəmana dönüb hər biri
Dünən millətini nadan sananlar.

Yüz-yüz xatirə var ürək göynədən,
Yaşayır qapılar gəzəyənlər də.
Hər gün ölümünün üstünə gedən,
Ya ona şayiə bəzəyənlər də.

Bu çirk canımıza yol tapıb haçan,
Niyə öz pasına qurbandı dəmir?
Dünən qorxa-qorxa cəbhədən qaçan
Bu gün kürsülərdən düşmək istəmir.

Qələm unuduldu, söz çıxdı yaddan,
Ömrü qurban verib pay ummamışam.
Çoxdu kürəyimə bıçaq saplayan
Əl versə könlünə toxunmamışam.

Demişəm, a qeybət, özünü üzmə,
Allah şahidimiz, düzü görəndi.
A nadan, yoluma tikanlar düzmə,
Bəxtim tikandan da çələng hörəndi.

Demişəm, ay həsəd, yenə nə işdi,
Saçımız ağardı, yorulmadın bəs.
Geniş ürəkliyə dünya genişdi
Mənim varlığımla yerin kiçilməz.

Demişəm, köhnə dost, çox da çəkmə qəm,
Ha buzlat ürəyi, bahar solarmı?
Mən də bu torpağı öyənlərdənəm
Vətən sevgisi də qısqanılarmı?

İş də unuduldu, şeir də bitdi
Daha hesabım yox illərimizdən.
Bizim taleyimiz şirin fürsətdi
Hesabı gələcək soracaq bizdən...

BƏXTİYAR, ƏLİ

Ağdamda həlak olmuş uşaqlarla –
Qarabağ faciəsinin ilk şəhidlərinə

Bir cüt şeh damlası, bir cüt göz yaşı,
Bir cüt qara bayraq, bir cüt baş başı,
Allahın qəzəbdən çatılan qaşı,
Qeyrət bünövrəsi, cürət təməli
Dirilən gümanım – Bəxtiyar, Əli!

Yurduma bir təzə bahartək gələn,
Gözündə dünyanın ümidi gülən,
Milyonlar qəlbinə birdən tökülən
Məhəbbət daşqını, intiqam seli
Ruhumda tufanım – Bəxtiyar, Əli!

Kim deyir yolları qırıldı, qısa,
Onlar əbədidi, batmayın yasa,
Bu sayaq ölməyi bacarırıqsa,
Hələ yaşayırıq, varıq deməli,
Həyat vəsiqəmiz Bəxtiyar, Əli!

ÖLƏN QORXUMUZ

Sumqayıt yeniyetmələrinə

Şükür!
Unudulmayıb
Yüz ilin o üzündə
itirdiyim bir nəğmə!
Mən öyrətdim, öyrətmədim
Səslənir oğlumun dilində!

Şükür!
Oğurlanmış saydığımız
Bir qeyrət bayrağı
Dalğalanır qardaşımın əlində!

Qurumuş bir bağça,
Verimsiz görünən bağ
Canlanıb budaq-budaq,
yarpaq-yarpaq!

Quru çay yataqları,
dar gəlir sellərə.
Bulaqlar çağlayır daşlar altından,
Gülüşü qeyb olmuş gözlər dirilib,
Sevinci tökülür yaşlar altından.

Mən adi millətin oğlu deyiləm,
Ən dərin yaramın bitişi bir an
Silah ağacıdı yalın əllərim
Çiçəkdən meyvəyə,

Yazdan payıza,
Ömürdən ölümsüz əbədiyyətə
yetişim bir an!

Ümid pöhrələri göyərdir bu yaz,
Dirçəlib hirsindən
boğulan torpaq!
heç qurdla quzu da bu gün yad deyil,
Qəfəsə salınmaz, gülləyə gəlməz,
Bu insan ruhudur, zarafat deyil,
Bu insan ruhudur torpaq deyil ki,
Meyvətək sıxasan suyu qalmaya
Dağ kimi oyasan boyu qalmaya!
Ürəyinin odu, gözünün nuru.
Gedəndə "dur"! demək heyi qalmaya!
Bu insan ruhudur, yəhər götürməz!
Yüz-yüz Sumqayıt tik
zəhər götürməz,

Qəbirdən göyərər, ölümdən dönər,
Zindan yollarını yorub qayıdar
Milləti bazara sürükləyənə
İblis damğasını vurub qayıdar.

Dünya yollarında adi qatar tək
Biz ulu ruhları daşıyanlarıq,
Hələ otuz yeddi yaşa çatmamış,
Neçə otuz yeddi yaşayanlarıq!

Çoxdan adlamışıq Sibir xofunu,
Sinədə alışan güllə odunu.
Şükür ki, bozarmış üzlərdə gördük
Uşaq əllərinin şillə odunu!

On beş yaş! Xətai yaşıdı bu yaş,
Başsızın başının daşıdı bu yaş!
Bizim ruhumuzun yaşıdı bu yaş
Ölən qorxumuzun yaşıdı bu yaş!

1988

TONQAL İYİ

"Tonqal iyi verirsən!" - Bir gözəlin sözüdü.
Tüstülü saçlarımı qarışdırıb gülürdü.
Bilmirdi tonqal iyi mənim saçımdan deyil,
Köksümdə tüstülənən ürəyimdən gəlirdi!

Gözlərimin önündə tüstülənən kitablar,
Nəsiminin, Sabirin ruhunda tonqal iyi!
haqqımı istəyəndə dilimə damğa basan
Adımı yasaq edən qorxumda tonqal iyi!

Tonqal-tonqal işıqdı adlayan əsrləri
Sibirdən üzümüzə sönmüş ocaqlar baxır.
Müşfiqin gur saçları bir tonqalın tüstüsü
Xızıda bir daxmaya dönmək üçün darıxır.

Kimdi budaqlarımı amansız silkələyən,
Qitələrə səpilir bu yetişən barımız.
Mühacir dəstələri ölkələr arasında
Astaca tüstülənən, sönən tonqallarımız!

Gözüm işıqdan doymaz, dilim sözə tamarzı,
O Hadinin ruhudu məzarını soraqlar.
Biz ocaq çatmırıq ki, qalxır zirzəmilərdən
Gözümüzün yaşıyla söndürülən ocaqlar.
Saçımda, paltarımda tonqal iyi, od iyi.
Azadlıq havasında çiçəkləyir daş meydan
Varımı talan edən yalanların içindən
Unudulmuş səsimi mənə qaytarır zaman.

Yerlə göy arasında qalxandı milyon yumruq
Qayıdır bir millətin cavanlığı üzünə
Yarağa yadırğamış əllərin gizli gücü
Damla-damla yığışır car çəkdiyi sözünə!
Qeyrət karvanlarıdı keçən uzaq yolları,
Obalardan əlimə milyon oldi uzanan

Tonqalların başında, mütilik şaxtasından
Soyuyan qanımızdı gecə-gündüz qızınan!
Milyon dildə bir hava, milyon əldə bir qılınc,
Çürümüş gövdələrə yarımca zərbəmiz bəs.
Bu meydanın işığı məmləkəti bürüsə,
Qaranlıq ayaq açıb üstümüzə yeriməz!
...Tüstülü saçlarımda titrəyir zərif əllər.
Göz yaşı qorxu dadır: ocağım qaralacaq.
Mən də adi bir kösöy – ancaq bir talesizin
Burnunda həmişəlik tonqal iyi qalacaq!

5.XII.1988

ACI XATİRƏ

Millətə nə qədər dərs vermək olar?
Dəli də dartınır: mənim sözüm var!
Nadan cilovunda küçə xamları –
Adam olmayanın "öz adamları"...
Kürsüdə pələngdi, daldada quzu,
Moskva casusu, Tehran casusu!
Gələcək bölgüdə nisyə iş alır,
Telefon zəngiylə göstəriş alır:
"Ziyalı ayıqdı, qoyma yaxına
Yazıçı sevilir, qara yax ona!
Bizimlə bir kökdən, rişədən deyil,
Möhkəmdi, heç kəsi eşidən deyil.
Sənin kimliyini bilir filankəs,
Gücün çatmayanda işığını kəs!
Qafası olanın əz qafasını,
Nüfuzu olanın qır nüfuzunu,
"Azadlıq" deyəndə öz nəfini bil,
"Millət" söyləyəndə tərəfini bil!
Torpaq alındıqca millət çaşacaq,
Bizim məqsədimiz yaxınlaşacaq.
Allahdan söhbət aç, Qurandan danış

Dünyada İslamı qurandan danış.
Millətə fərqi yox, lap meymun olsun
Önündə zahiri bir mömin olsun.
Kimin sözü keçir, mövqeyi qəti,
Xalqın arasında varsa hörməti –
Çalış ki onu da bizlərə bağla
Bağlaya bilməsən, ləkə yax, dağla!"
Beləcə millətin səfər başında
Hər kəs pay umurdu ər savaşından.
Tapşırıq qulları önə atıldı,
Halal işimizə haram qatıldı.
Bir əl quzusudu kürsüdəki şir,
Hər gün yuxarıdan dərs alıb gəlir.
Millət xəbərsizdi – dərdinə yanır,
Tülkü həccə gedir – millət inanır!..

"AZƏRBAYCAN" QƏZETİNƏ GÖZAYDINLIĞI

Gözün aydın, ay düz sözüm,
təmiz sözüm, –
Yolun açıq...
Qorxulardan, hədələrdən qop azacıq!
Gey əyninə qandallardan qançır olmuş qanadını.
Yığ gözünə şirvələri aşa bilmək inadını!
Yüz əsrlik çeşmələrin gözünü aç!
Üfür külü! Bu ocağın gözünü aç!
Sən Xətai harayında döyüş idin,
Sən Nəsimi dodağında ilahiyə görüş idin.
Sən Füzuli zirvəsində möcüzəydin,
Sən Sabirin səngərində cəmi şərlə üz-üzəydin!
Dədə Qorqud hikmətinə çata bilsən
Ətalətdən silkələnib, yorğunluğu ata bilsən,
Yenə elə aşıb-daşan okeansan!
Köləliyin başı üstə bir tufansan!
İldırımsan, yaxacaqsan,

Sən bu zülmün sarayını yıxacaqsan!
Qoy xəcalət çəksin bir az
mədhiyyəçi xəbərçilər!
Sən qardaşlar ürəyinə rəhm çilə!
Qılınca dön, qurşuna dön,
Bu padşah ordu sevmir,
Sən silahlan, qoşuna dön!
Boğazına kəfən dola, əzabları al gözünə.
Ürəyini qalxan elə
Hər gün böhtan süngüsünə.
Şər minüzlü, şər ayrılmaz.
Al qanını üzünə tut, ümidini yarana bas!
Bir vaxt düşmən səni boğdu,
Bu gün tarix səni doğdu.
Bu gəlişin əbədilk, bu gəlişin biryolluqdu!
Sən qırx beş il ürəyimi deşən sözüm,
İki yüz il məqam gəzən
ac həqiqət – sısqa bir şam,
Mən bir ömrü yol gözləyib
öz haqqımın zərrəsini qazanmışam!..
İlk sayında bomba gücü, zəlzələlər tərpənişi.
Sanki tilsim qırılıbdı əjdahanın sınıb dişi.
Kabinetlər silkələnir, telefonlar zingildəyir.
Yer titrəsə tərpənməyən bir sözümdən dingildəyir.
Səhifələr qan-qırmızı, hər baxanın yüz əmması,
Qan içəndə qorxmayanın sözdən qorxmaq müəmması.
Hədələrdə cəllad hökmü; Moskvanın əmri qəti:
Öz ömrünü qapadırsan qapatmasan bu qəzeti.
Dedim: Sizin bu dünyadan xəbəriniz yoxdur deyən.
Millətinə haqq istəyir Millətimi qul eləyən.
"Əzilirəm"! deyir mənə məni əzən.
Kim biləcək sən haqlısan öz haqqını söyləməsən".
Atıldım çölə balıqtək son əlacım bir damla su...
Gördüm sinəmi böyüdür böyüyün hədə-qorxusu!
İndi daha yalvarışdı uzaqlarda qalan səsi!
Bir dəfəlik dağılmışdı bu ağ evin vahiməsi.
Gördüm adın dillərdədir, məlhəm gəzir qanlı yara.

Bayraq kimi taxılmısan hər tin başı divarlara!
Dedim, sözüm, gözün aydın,
millətimin güvəncisən!
Çox olacaq zirvə aşan
Bu zirvədə birincisən!..
Gözün aydın, "Azərbaycan",
Döyüş himnim, alın yazım
Hər gün mənə "dərs versinlər".
Təki səsim alınmasın!

1989

ÖLÜMÜN GÖRÜŞÜNƏ GEDƏN QIZ

Elə dünən ömrünün
bahar çağıydı.
Elə dünən bu gözlər
dünyanın ən qaynar bulağıydı,
Qoluma girdin,
bir addım geri durdum,
utanıb adamlardan,
İndi daha sən yoxsan,
Yoxum, yox olanım, can!

Dünən saçların bulud,
qarışırdı küləkdə.
"Yalvarıram, ay qardaş,
bir az özünü qoru!" –
danışırdın ürəkdən.
Nə sevgini gizləyirdin,
nə gözünün yaşını.
Ən şirin görüş yerindən
üstün tuturdun
tonqalların başını.
Mən özümü qorudum,

ya da Allah, təsadüf,
ya da ki xeyir-duan...
Məni qoruyanım, can!

Elə dünən səsində
əbədiyyət karvanının
zınqırov cingiltisi,
Elə dünən köksündə
dünyanın ən böyük sevgisi,
Gözün keçilməz dəniz,
Alnın ay kimi təmiz,
Yad nəfəsi duymamış,
Nəvazişə uymamış
zərif dağ çiçəyidin,
Bir ömrün yaraşığı,
əhdi, gələcəyiydin...
Səni ayrı sevgiydi
xoşbəxt edən, uçuran.
Öz eşqinə baş vurub
orda boğulanım, can!

Heç kimin açmadığı yaxanı güllələr açıb,
Qönçə döşlərinin arasında
açılıb qızıl güllər.
Ancaq üzün xoşbəxtdi...
Yarıyumulu gözün
öz əhdinə yetəntək
yenə duyğulu, gülər...
Açmısan öz sinəni yurdun azadlığına,
Süngünün öpüşünə,
güllənin dodağına!

Bu gündən bu yaraya
bütün dünya baxası,
Bu gündən qanlı yaxan
mələklərin yaxası...
Ana olmamış anasan –
övladların

yaralarından doğulacaq,
Süd əvəzinə qisas içirəcəksən onlara,
südündə düşmən boğulacaq!..

Elə dünən ömrünün
bahar çağıydı,
Elə dünən qayğımı çəkirdin –
körpə ağlınla ağıl öyrədirdin mənə...
Elə dünən
ilk sevginə doğru yol gedirdin,
Ömründə bircə dəfə vəfasız çıxdın –
Getdin... sevgilinin yox,
Ölümün görüşünə...

26 yanvar 1990

20 YANVAR XATİRƏSİ

Bura şum yeri deyil,
Saxla, kotanı, saxla!
Çək dəmir cilovunu,
Qızmış atını saxla!

Hərəsi bir buğdadı
bir sünbülün içində,
hərəsi bir ləçəkdi –
qızıl gülün içində!

Tək-tək gəlməyiblər ki,
təkləyib yatırasan,
Yüz min ürək əriyib
bir ürəyə dönübdü.
Tək-tək danışmırlar ki,
səsini batırasan
Birisinin sözündə
yüz min haray dinibdi!

Başı kim, ayağı kim –
daha seçə bilməzsən.
Dəmir bıçaq olsan da
kəsib keçə bilməzsən!..

Yüz min cavan üz yanır,
doğrasan qanı çıxmaz.
Vaxt da onların qulu,
dartma zamanı, çıxmaz!

Şəhər göz dənizidi,
qara tufandı şəhər.
Balaca dalğasında
dünyalar silkələyər!

Qaldırın bu çiçəyi
təpiklərin altından.
Çıxarın ürəyimi
tətiklərin altından!..

QORXUM QALMADI

Bu torpağa çoxdan bəri
şəhid məzarları əkilməyib
bərəkəti qaçıb zəmilərin.
Havasında ilham azalıb,
çaylarında su...
Adam bu torpağın
qısırlığından qorxur!..

Bu torpağa çoxdan bəri
şəhid qanı tökülməyib
ətri qaçıb gül-çiçəyin,
Rəngi avazıyıb bayraqların.
Nə qışının ayrılığı qalıb,
Nə doğuşuna sevinirik baharın...

Qayıtdı, qayıtdı
torpağın bərəkəti,
Yollar boyu qaynaya-qaynaya
axan qanımızla,
güllələrin dəlik-deşik
elədiyi kökümüzdən
qabaran tufanımızla...
güllələri maqnit kimi soran
gözümüzlə.
Tankların yuxaya döndərdiyi
Üzümüzlə...

Qayıtdı, qayıtdı
bayrağımın əsl rəngi,
ilhamın qanadı,
günəşin odu...
Torpağım azadlıq doğacaq sabah!..
Qorxum qalmadı!..

ZİREH

Bu bağda çiçəklər açardı,
Yerinə şəhid məzarları əkilib.
Və məzarlardan üzlər göyərib, –
Cavan üzlər çiçək-çiçək...
Ana fəryadına dikələn daşlar
Rişə-rişə bu torpağı bürüyəcək.
Daşdan zireh geyəcək Vətən,
Bu müqəddəs zirehdə sıxılmaz canım.
Bu müqəddəs zirehdə
Düşmən qorxusunu unudacaq
Elim, obam, Azərbaycanım.

13.II.1993

MƏN DEMƏDİM

Xalqın ürək yanğıları daş əridir,
Dağ oynadır könlündəki ağrı-acı.
Hər günümüz bir faciə əsəridir,
Beş-onumuz oyunçudur,
qalanımız-tamaşaçı!

Hər adamın göydən gələn qismәti var,
Birisinə gül dəstəsi,
birisinə güllə çatır.
Bu dünyada bir az bazar xisləti var,
Az hissəmiz söz satandı,
çox hissəmiz alqış satır!

Millətimin taleyində bu bir yazı –
Üz üzədir sevgi kinlə,
qılınc qanla.
Hər danışan bir siyasət balıqçısı
Min ürəyə qarmaq atır bir yalanla.

Bu yürüşə taleyini qoşanla bir
Qoşulubdu ağız busub, söz güdən də.
Qoca karvan bu yollarda divanədir,
Söz sorsa da mənzil sormaz hər ötəndən.

Mən dərvişəm, ürəyimi dərd oxudur,
Kimlərisə isidəcək dərd ocağım
Bu dünyanın heç nəyində gözüm yoxdur,
Bəlkə bir az Tanrıdan var umacağım.
Taledən var ehtiyacım – sözə əvəz...
Halal sözü haram payla yoxlamasın.
Daha məni öz yolumdan döndərəmməz,
Ovsarımı quyruqlara bağlamasın!

Qoca karvan, qoca millət! Ümman daşıb
Ay söndürür, Gün keçirir, Zaman qovur.
Ancaq deyən sarvanımız harınlaşıb,
Ancaq deyən paslanıbdı zınqrovu.

Bu çanları cingildətdim öz səsimlə,
Zəhər qatdım Sarvan bəyin yuxusuna.
Bəlkə köylü, bəlkə göylü nəfəsimlə
Bu karvanın gözündəki yuxu sına!

Ümidlərdən işıq əmir yerim, göyüm
Həqiqəti doğmalıdır Tarix – ana.
Necə deyim, bu millətə necə deyim,
İnanmasın dirijorlar çubuğuna.

Birlik deyib yüz ildə bir yığıldıqsa
Hər qorxunu, hər hiyləni duyacaq kim?
Öz dərdinə heyrət ilə qulaq asan
Millətimə "bu iblisdi!" necə deyim?

Necə deyim kimlər burda nələr gəzir,
Nə umurlar haq-nahaqqa axan qandan.
Bu meydanda öz himninə yananla bir
Var özgənin havasını çaldıran da!

Dərələri görəmməzdim yal aşanda,
Cavab vermək ağır gəlir goreşənə.
Bu çör-çöplər ayağıma dolaşanda
Mən qaçırdım həsrətimin görüşünə.

Vətən eşqi!
Bir əsim yel, ötən duman,
Onumuzun ürəyində, minimizin dilindədir.
Mən azadlıq qapısını döyən zaman
Gördüm o da iblislərin əlindədir.

Yurd yenilib?
Ürək yara, dilim qabar,
Hara baxsan söz gülləsi...
kimlər kimin qarasına!
Dünən xalqa öz eşqindən dəm vuranlar
Məlhəm deyil, köz basırlar
məmləkətin yarasına!

Tariximin göz dağları –
aldananlar, yanılanlar.
Ancaq yenə divar-qalın, pərdə-dəmir!
Zaman-zaman lənət ilə anılanlar
Çürük kökdən təzədənnən pöhrələnir!

Lənət olsun bu vəzifə minnətinə!
Qırmaq olmur – həmin kilid, həmin açar.
O sirlər ki dərd artırar millətimə
Mən demədim, mən açmadım...
Zaman açar!

1992

SİZ NƏ UMURSUNUZ BU GEDİŞATDAN

Bizi qananlardan bizi danan çox,
Xırda oyunlarda xırdalanan çox,
İş görən tək-təkdi, qurdalanan çox,
Siz nə umursunuz bu gedişatdan?!

70 il qurulan xarabalar bu,
70 il yazılan salnamələr su,
Millət qəhrəmanı, ya rus casusu? –
Siz nə umursunuz bu gedişatdan!..

Ax namussuz yalan, ax qəddar yalan,
Millətə yalmanıb milli olmusan.
Elin qeyrətidi ortada talan,
Siz nə umursunuz bu gedişatdan?

İstər fitnə göyərt, istər toxum ək,
İstər dərd bağışla, istərsə ürək,
Ağız-ağızayıq ac canavartək
Siz nə umursunuz bu gedişatdan?

Mən sözün ağası, söz mənim qulum,
Mən haqqın yolçusu, haqq mənim yolum,
Divar daşı olum, baş daşı olum
Siz nə umursunuz bu gedişatdan?

Gündüz kölgələnib, ya günə dinmiş,
Sevgi qısırlaşır kin-kinə minmiş
Allah da şeytanın tərkinə minmiş
Siz nə umursunuz bu gedişatdan?

1992

TƏBRİZLƏ GÖRÜŞ

Bu görüşü dərdə dərman bilmişdim,
Həsrətinlə çox ağlayıb gülmüşdüm,
Ayağına bir qış günü gəlmişdim,
Ey qar altda ürəyi yaz, Təbrizim,
Çörəyi bol, qisməti az Təbrizim!

Çiçəklədim, bahar bildim qışını,
Köksüm sıxdım, canlı sandım daşını,
Qarla yudum, gizlədim göz yaşımı,
İş ustası, söz dəcəli, Təbrizim,
Göz yaşına öyrəncəli Təbrizim!

Dalğa idim ummanına qovuşdum,
Zəvvar idim, karvanına qovuşdum,
Azadlığa gümanına qovuşdum
Azadlığın ilk səngəri, Təbrizim,
Tarixlərin şah əsəri, Təbrizim!

Nə gözlədim, nə axtardım, nə buldum,
Nə buldumsa ürəyimə qəbuldu.
Bu soyuqluq nə zamandan dəb oldu.
Övladını qonaq bilən, Təbrizim,
Dərdinə də deyib-gülən, Təbrizim!

Qüdrətinə şəkk eləyə bilmədim,
Qoca Ərkə ərk eləyə bilmədim
Nə yatırsan, dərk eləyə bilmədim.
Ey dünyanı yola salan, Təbrizim,
Ey karvandan dala qalan, Təbrizim!

Cənnətini səndə tapan çox idi,
Sözün varsa, daşdan keçən ox idi.
Nyu-Yorklar, Londralar yox idi.
Öz yerində sayıb duran, Təbrizim,
Nökərlərə boyun buran, Təbrizim!

Qılınca yox, yağlı sözə əyildin,
Düşmənə yox, dost-qardaşa döyüldün,
Tarix boyu belə məzlum deyildin.
Ümid bürcüm, zəfər tağım, Təbrizim,
Güllə dəymiş söz bayrağım, Təbrizim!

Bakı Səndən, Sən Bakıdan ummada,
Donuq qanlar özgədən qan ummada!
Ümid yoxdu bu dünyadan ummada,
Yıxıq könlüm sən özün qur, Təbrizim,
Zaman gedir, ayağa dur, Təbrizim!

ŞEİRDƏN KÜSMÜŞƏM

Mən şeirdən küsmüşəm,
Sözümdən küsən kimi.
Qardaşımdan, bacımdan
Özümdən küsən kimi.

Onun nə vecinədi,
Kim gedir, kim inciyər.
Söz-Allah vergisidi
Allahdan da inciyəm.

Sinəsində Vətəni
yerləşdirə bilmirsə,
qonşunu qonşu ilə
birləşdirə bilmirsə,
odundan, atəşindən
açılmırsa donumuz,
Onunla onsuz kimi
dəyişməzsə sonumuz,
Şerim bircə namərdi
Kürsüsündən atmırsa,
Yüz-yüz qana batanın
Burnunu qanatmırsa,
Daş eləyə bilmirsə
Yurda uzanan əli,
Şer zamanı deyil.
Aldanmışam deməli!

Yalqızlıqdan bezmişəm,
Dil bilən həmdəm deyil.
Mən şeirdən küsmüşəm,
Yarama məlhəm deyil!..

BİR GÜN MƏN DƏ GEDƏCƏYƏM

Əbədilik qalan yoxdu,
Bir gün mən də gedəcəyəm.
Mamırlı bir daşa dönüb
Göy çəməndə itəcəyəm.

Kimsə bir az sısqayacaq,
Bir az yanğı, bir azca yaş.
Sonra yara qaysaqlanıb
Sağalacaq yavaş-yavaş.

Sözüm Vətən göylərində
Hərdən topa, hərdən seyrək.

Xatirələr damla-damla
Yaddaşlarda əriyəcək.

Vərəqlərdə saralan ad...
Qalan başqa nə olacaq.
Beli bükük ata yurdu
Ürək kimi sönən ocaq.

Min-min belə yurd görmüşəm,
Min-min belə qəbir daşı.
Okean ol, qasırğa ol –
Susan günün yaxınlaşır.

Ondan sonra kimə gərək
Sirr saydığım bilməcələr,
Vuruş adlı gülməcələr
Sahilinə əl yetməyən
Ümman adlı gölməçələr?
Bu qayğılar, bu əzablar,
Gizli görüş, isti qucaq
Kağızlarda həsrət yaşı,
Yollarına göz dikənlər,
Telefonlar yalvarışı,
Bu kölgəni qılınclayan
Bu adından titrəyənlər...
Nə olubdu azarları?
Biləcəkmi dünya məgər?!

Biləcəkmi dünya görən
Necə gördüm onu, necə,
Çox karvanlar daşınıbdı
Nə apardı indi keçən?

Nə apardım bu ürəkdə,
Bu baxışda, bu yaddaşda? –
Bir daş qədər qədirsizdim,
İndi cavab alsın daşdan!..

ALLAH BU MİLLƏTDƏN NƏ ƏSİRGƏYİB

Allah bu millətdən nə əsirgəyib?
Yerin nəfəsiylə yanan odu var.
Üzündə göylərin sirli işığı,
İstedad istəsən istedadı var.

Dünyanın ən münbit torpağı kimi
Nə desən bitirər ruhu da elə!
Onun bu bərəkət möcüzəsidi
Min illər düşməni qorxudan elə!

Gözü göylərdəykən ayrılır işdən,
haqqın yollarına verib varını.
O hələ torpağı becərməmişdən
Ruhuna səpibdi arzularını.

Ağılda ağsaqqal, ürəkdə uşaq,
Könlü gözəlliyin birincisidi.
Bu yurdun övladı hər şeydən qabaq
Ən xoş duyğuların əkinçisidi!

Zülmətdən adlayır əli çıraqlı,
Tanrıdan diləyi halal çörəkdir.
Bütün ümidləri göylərə bağlı
Başına daş yağsa götürəcəkdir.

Uf deməz mərdliklə köksünü yarsan,
Min yol qapı açıb şeytana, bilmir.
İnsanın içində İblis də varsa,
Belə qonşuluğa inana bilmir.

Bəs niyə bu dünya yağıdır ona,
Min dəfə cəhənnəm odundan çıxıb –
Yəqin səxavətlə yaratdığına
Bəxt vermək Allahın yadından çıxıb.

Yanvar, 1995

BU, ADİ MİLLƏT DEYİL

Şəhidlik ömrün tacı,
şəhiddi baş tacımız,
Şəhiddi neçə-neçə qardaşımız, bacımız.
Allah üz döndərəndə şəhidlik – əlacımız.
Bir candı, qaytarırıq – elə də minnət deyil.
Qoy tarix yenə görsün, bu adi millət deyil!

Dünya boyda evi var, evindən qovulandı,
Əzrayıl yorulanda içindən boğulandı,
O Səmondər quşutək külündən doğulandı –
Başqasına son olan ona fəlakət deyil,
Qoy tarix bir də görsün bu adi millət deyil!

Qəm mənə təsəlliydi, daha qəm güllələnib,
Beş ildi hər gündüzüm, hər gecəm güllələnib,
Quru nəfəsim qalır, düşüncəm güllələnib,
Sinəm bir qəbristandı – ölümə sərhəd deyil,
Qoy tarix şahid olsun, bu adi millət deyil!

Adam saymadığımız adamlıqdan danışır,
Dünyaya haray çəkib, quldur, nadan danışır
Erməninin cildində Cozef, İvan danışır,
Yenə kefimizdəyik, düşmən bizə dərd deyil
Qoy tarix şahid olsun, bu adi millət deyil!

O qədər ki talandım, içim boş qalmalıydı,
O qədər axdı qanım, dünya yaş qalmalıydı,
Bu torpağın üstündə təkcə daş qalmalıydı,
Yenə ümid, təsəlli, bəlkə qiyamət deyil?!
Biz necə sübut edək, bu adi millət deyil!

Bu gün bəy saydığına, sabah gəda deyəcək
Bu gün büt bildiyinə, sabah hədə deyəcək,
Biclik fəlsəfəsini o çox sadə deyəcək,
Tacların parıltısı gözündə qiymət deyil,
Hər addımı heyrətdi, bu adi millət deyil!

Neçə ulaq görübdü, hamısına palandı,
Neçəsinə əyilib daldan təpik alandı,
Min yalan nitq eşidib, yenə çəpik çalandı,
Aldanışlar, hiylələr dözümünə həddi deyil
Hər ovçunun ovudu, bu adi millət deyil!

Evində düşmən gəzən-bazarların kovxası,
Bacısı əsir olan – Aynaların sovxası...
Vallah indi lazımdı Sabirlərin qovğası,
Şerimiz də cırlaşıb iti deyil, sərt deyil,
Doğrayıb göstərə ki, bu adi millət deyil!

Düşmənlə bacarmayıb, qardaşı yenən bizik,
Çöldə quzuya dönüb evdə deyinən bizik,
Həm tülkünün cücəsi, həm cücəyə dən bizik!
Bu mənim harayımdı, özümə nifrət deyil,
Bəlkə bir gün ayrıldıq – bu adi millət deyil!

Bir gün kiflənmiş başlar cana gəlib çalışar,
Bir gün yurd tutanların məzarları alışar!
Bir gün Savalan yanar, Xəzər Muğana daşar!
Görərik Abşerona qonmaq kifayət deyil
Dünyaya göstəririk bu adi millət deyil!..

1993

XOCALIDAN SONRA

Xocalıdan sonra özümdən zəhləm gedir,
Qohumumdan, qonşumdan,
"Müstəqillik yolundan",
"Azadlıq vuruşundan",
Görüşümdən, şerimdən, sözümdən
zəhləm gedir!

Nə iş başlayıram, hara gedirəm
Üzü bahar olur, üzü qış olur
Dünyanın ən böyük möcüzələri

Məni torpağımdan qoparmış olur,
Bir anlıq əyləncə – şimşək işığı,
Sonra qara zülmət başlanır yenə.

Düşmən süngüsündən imdad diləyən
Bir ana baxışı, gəlin baxışı
Bir qisas baxışı, ölüm baxışı
Mənim daş üzümə tuşlanır yenə.

Asılıb qalmışam vaxt boşluğunda,
Daha bu sabahım, o keçmişim yox!
Mənim Xocalıdan başqa tarixim,
Mənim Xocalıdan başqa işim yox!

Yazır Malıbəyli məktəbliləri
Qırx uşaq əlinin izi kağızda:
"Çınqılda bənövşə açılıb gəlin,
Axı demişdiniz gələrəm yazda".

Çınqılda bənövşə açılır yenə,
Şuşa dağlarında əriyəcək qar
Hardadı məni də bir adam sayan
Yolumu gözləyən doqquzuncular.

Mənə bu xəcalət ölümdən betər,
Biz o mart günündən hayana qaçaq
Millət dövlətsiz də yaşaya bilər,
Kişisi cırlaşsa öləcək ancaq.

Daha Allaha da inamım qalmaz,
Mənə bu qisməti fələk qıyıbsa.
Bu dərdi heç nəylə ovutmaq olmaz
İntiqam məlhəmi tapılmayıbsa.

Yazıq canı yoxkən hələ sağ olan,
Beş ildi vuruşu ağlamaq olan,
Əli qılıncına yetə bilməyən,

Bu ölə bilməyən, itə bilməyən,
Kürsü qəhrəmanı bizlərə yazıq,
Yazıq "namus" deyən o gəlinlərə,
Yazıq nifrət saçan gözlərə yazıq!

Xocalıdan sonra
qısılıb səsim...
Səsim o dağlara ilişib qalır.
Xocalı ləkəsi daşıyan millət,
Vuruşdan savayı nə işin qalır?!

1992

DÜŞMƏN ƏLİNDƏ

İsa bulağının suyu şırhaşır,
Kirsin çiçəkləri başımdan aşır,
Dərddən döyənəkdi dağların başı
Ağsaqqal dağlarım düşmən əlində.

Səslənir, qabarır, tökülür Turşsu,
Ah kimi sinəmə çəkilir Turşsu,
Bu yay qonaqsızdı, tək ölür Turşsu,
Yalqız bulaqlarım düşmən əlində.

Gəlib gül çağları, lala çağları,
Kəkliyin, əliyin bala çağları,
Hamı yurd yerinin alaçıqları?
Küskün yaylaqlarım düşmən əlində.

O Cıdır düzünün şuxluğu, dadı
O Şuşa adlanan arzu-muradım
Bir qaya üstündə üç dostun adı –
Ən dəli çağlarım düşmən əlində.

Dağların döşündə məclis qurulmaz,
Sazın simlərinə mizrab vurulmaz,

Ağlar gözüm kimi göylər durulmaz,
Saralan bağlarım düşmən əlində.

Murovsuz qalmışam – boyum kəsilib,
Ağgöllər bulanıb, suyum kəsilib,
İşıqlı dağında toyum kəsilib
Gəlin otaqlarım düşmən elində.

Bir gün Pənah xanın qanı dinəcək,
Bir gün Xətainin ruhu dönəcək,
Budanmış gövdəmiz pöhrələnəcək,
Sınsa budaqlarım düşmən əlində.

HEYİF

Bu ulu millətin qanı müqəddəs,
Qılıncı müqəddəs, qanı müqəddəs
Bəs niyə dəyişdi, hansı müqəddəs?!
Heyif, Məmməd Araz, çağlarımıza!

Alagöllər boyu şığıyan kimdi,
Çəmən hanasını toxuyan kimdi,
Yazılı daşları oxuyan kimdi,
Daşdan qaynar-qaynar çağlayan kimdi,
Pəri Çınqılında ağlayan kimdi,
Bir simdə min sirri saxlayan kimdi? –
Heyif, Məmməd Aslan, dağlarımıza!

Qoşa körpülərin daşındı, daşı,
Ziyarət dağının əyildi başı,
Silah tuta bilmir heykəl qardaşın,
Heyif, Sabir Əhməd, sağlarımıza!

Şuşanı itirib susuz qalıbsan,
Dəstgahın qırılıb, ruhsuz qalıbsan,
Kişi dövranından qalma qalıbsan,
Heyif, Firudin bəy, ahlarımıza!

Kimsə bilməyəni şikəstə bilir,
Allaha yol çəkir Qədirin zili,
Yandı Xudu yurdu, susdu Mərzili,
Heyif Həsənoğlu Şahlarımıza!

Hanı Kürdoğlunun İşıqlı dağı,
Ağa Laçınlının ata ocağı,
Sultan bəy yurdunda Akop ulağı
Heyif Eldar Baxış, "Qalx!"larımıza!

Qoşa minarələr – daş şamlarımız
Səslərkən, yatdımı adamlarımız,
Qara günə qaldı Ağ damlarımız
Heyif, Aqil Abbas, bağlarımıza!

Bayram müəllimin Cıdır düzü yox,
Familin, Şahmarın sakit sözü yox,
Zeynal müəllimin dost məclisi yox,
Heyif qızıl güllü tağlarımıza!

Xalqım! – deyə-deyə divanə gəzdin,
Xalqın qulağına haqq deyən səsdin,
Sən haqqı bu qədər dönük bilməzdin,
Heyif, Rüstəmxanlı, haqlarımıza!

BİR ÇİBİN VIZILTISI

Gör kimdi dınqıldadan
bağladığım bu tarı,
Gör kimdi yağmalayan
mənim yığdığım varı.
Adları bu şərimə
layiq olmayanların.
Başları piy bağlamış,
fikri-mayası qısır.
Bu hədyan çocuqları –
bir cibin vızıltısı!..

Millətin dar günündə
meyxanada yatanlar,
Bir kürsü vədəsinə
dədəsini satanlar,
Ələ qələm tutmayan
bu məddah şarlatanlar
Millətə üz qarası,
vaxtın tökülən pası,
Sözümüzün çirkabı –
bir cibin vızıltısı!

El deyib "ver" düşünür,
nəfəsi də yalandı,
hərracxana bayquşu
sanır Vətən talandı,
Gövşəyib udduqları
süfrəmizdən qalandı,
Günəş varlığımızdan
ürəyinə nəm sızır,
Böyüyə tutduğu züy –
bir çibin vızıltısı!

Şah adına sığınan
gədələr meydan açır.
Sırınan sığırlılar,
fitələr meydan açır,
Baş çoxdan çürüyübdü,
mədələr meydan açır,
Namərd gözü deşikdə,
ağzımda sözü busur –
Karvanımın dalınca –
bir çibin vızıltısı!

Düzlük gözlərinə mil,
bu da bir kar aşıqdı,
Mən həyat ağacıyam
gövdəmə sarmaşıqdı,

Millətik, ancaq, heyif
qanımız qarışıqdı,
Tülkülərin yanında
quyruq qısan bu tazı
Qurdam deyib ulasa –
bir çibin vızıltısı.

Yurdun qəm dəftərinə
bir vərəq də yazıldı,
Qardaş dediklərimə
bir məzar da qazıldı,
Biri mikrofonundan,
biri sözdən asıldı,
Bu şeytan tayfasına
indi kim qulaq asır?
Onlardan artıq olar
bir çibin vızıltısı!..

İyun, 1994

QAYIT

Qul olmağa yarandınsa
Qul ol... sənə sözüm yoxdur.
Daha mənim "Qəhrəmanıq!"
Harayına üzüm yoxdur.

Abşeronun duz gölüsən,
Zaman səni qurutmada.
Sən özünə düşmən olub
Düşməninə yarıtmada.

Tikan olub öz düzünə,
Öz sözünə əkilirsən.
Yox geriyə yolun daha,
Daha hara çəkilirsən?

Okeandın, dəniz oldun,
Dəniz döndü gölməçəyə.
Döndün donsuz donu öyən
Dərdə bələk gülməcəyə.

Sağın kəsik, solun kəsik,
Qıçın kəsik, qolun kəsik,
Öz-özünə tanımırsan,
Tanınmağa yaddaşın yox.
Ya "Barat"san, ya "bəradər"
Qardaş! Niyə öz başın yox?!

Quş yuvası, arı kanı,
Məzarın da sərhəddi var.
Hara qədər enəcəyik,
Pisliyin də bir həddi var!

Halal idik – güclü idik,
Haram nəfsin xəstələnmiş.
Zalım qardaş, zalım bacı
Qarın bizi üstələmiş.

Qayıt, mənim dəli ruhum,
Yer titrədən nərəm, qayıt!
Əsli eşqin bizi yıxdı,
Kəs bu eşqi Kərəm, qayıt!

Yağmaladı mərə kafir,
Düşmən əli qıran, qayıt!
Bakıda Çaldıran qurma!
Şuşanı qaldıran, qayıt!

Biz namusla uca idik,
Namus üstə ölən, qayıt!
Ay Ağdamın bazarında
Ermənilə gülən, qayıt!

Qayıt, qayıt bazarlardan,
Məzarlardan, yanıb, qayıt
Qəbirstanın şımlanıbdı,
Öz anamı anıb qayıt!

Axçilərin tumanından,
Bu sərsəmlik dumanından,
Bu "düzələr" gümanından
Çıxmalısan, çıxıb, qayıt!
Yorğunluğu, durğunluğu,
Qorxaqlığı yıxıb, qayıt!

Qayıt, mənim gur nəfəsim,
Kür nəfəsim, sel nəfəsim.
Qayıt, yurdu xilas elə,
Üstünə düşmən gəlməsin!

Çəkəmməzsən bu ləkəni,
Ölüm, olum savaşıdı,
Qayıt düşmən qabağında
Təklənən öz qardaşındı!

Qayıt, ana südü içən,
Dünya bizə gülər, qayıt!
Ruhumuzu diriltməsək,
Azərbaycan ölər, qayıt!

NƏBİ XƏZRİYƏ

Həyətdə sızlayır Eldar şamları,
Dinləyəni kimdi, anlayanı kim...
O ana, o bacı, ömrün baharı
Əlçatmaz olubdur, Nəbi müəllim!

Quruyur həyətdə ağaclar tək-tək,
Qəlbimi göynədən vida səsidir.
Ata yurdlarını kimsəsiz görmək
Dünyanın ən qəmli mənzərəsidir.

Əlində əsirik xatirələrin,
Qar yağır, ağardır ömrümüzü qış.
Keçmişlə arada uçurum dərin,
Geriyə dönməyə körpü qalmamış.

Bu ağac dirildi, bu ot dirildi,
Ancaq hamısının üzündə kədər.
Evlər sahibinin kölgələridir,
Sahibi getdisə yetimdi evlər!

Çiçəklər bacıtək ürəyi çəkir,
Ürəyi günəşlər yer əsiridir.
Bu evlər adicə ocaq deyil ki,
Ana nəfəsinin heykəlləridir.

Yaş artır – hey dolur boşalır gözlər
Çığırlar yol olub qayıdır yurda
Döyür pəncərəni İllər-Sahillər
Vətən də burdadı, Qürbət də burda

Bir az unutqandı millət neynəyək,
Bu gün aldığını sabah unudur
Şeir də bağçada əkilən çiçək
Qoxlayıb atmaq da yer qanunudur.

Şairələr – dünyanın ilk səyyahları,
Bu yer nemətləri ona oyuncaq
Şairələr, dünyanın söz allahları
Ana həvəsinin quludur ancaq!

Xırdalan, 30.I.1992

AYDIN MƏMMƏDOVUN DƏFN GÜNÜNDƏ

Yarıldı yerin köksü – əbədiyyət qapısı,
Qəbirstanlıq yolları dolub-daşdı adamla.
Ağ kəfənə çiləndi ağ buludun göz yaşı
Baharın ilk yağışı...
cəmi beş-altı damla!

Söndü Allah ocağı – bir ürək yarı yolda,
Daha ona nə fərqi – ya alovlan, ya yanma?
Göz yaşları sel olsun bu zaman ümmanında –
Udulub gedəcəkdir...
cəmi beş-altı damla!

Budaqdan çırtıq-çırtıq qalxır kövrək yarpaqlar,
Ağır buludlara bax – üzüb gedir nizamla,
Köhnə qəbirstanlıqda mamırlanmış baş daşı
Min ilin yadigarı, –
cəmi beş-altı damla.

Deyilməmiş sözümüz, yazılmamış yazımız,
Allahın sir-boğçası – daşa dönən ilhamla.
Zamana qarışacaq!
Qazancımız nə imiş? –
Vaxt tapıb dediyimiz...
Cəmi beş-altı damla.

Meydanlar, çayxanalar – sözün bülöv daşları,
Dostların işığına uçduğumuz axşamlar...
Hərə vəhşi dərdini salıb ürək qəfəsə,
Sevinci dil ucunda –
cəmi beş-altı damla.

Yaşıla çalan gözlər, gizli qəm burulğanı,
Ölümün o üzündən yenə bizi salamlar!
Deyər ki, millətimiz göyərəcək içindən
Suyunu Tanrı versə –
cəmi beş-altı damla!..

XƏLİL RZAYA MƏRSİYƏ

Qırx il öz kəfənini boğazında daşıdın,
Sinəni səngər etdin, səngərlərdə yaşadın.
Sən mənə dost deyildin, qanıbir qardaş idin!
Masası ocaq daşı, yol daşı, Xəlil Rza,
Nəsiminin, Cavidin yoldaşı Xəlil Rza!

Düşmən gözümü oyur Kəlbəcərdə, Laçında,
Vətən alov içində, Vətən yol ayrıcında,
Millətin kişi sözü qələminin ucunda
Sözü də eli kimi köksü qan, Xəlil Rza,
Sağ ikən şəhid olan, qəhrəman, Xəlil Rza!

Ürəkdə çarpaz dağlar – yurdu bölən şırımlar,
Gözündə qəm bulağı, gözündə ildırımlar
Tabutda da ürəyin Təbriz deyib hayqırar
Qələmiylə buz qıran, dağ yaran, Xəlil Rza,
Təbrizdən, Qarabağdan nigaran, Xəlil Rza!

Uşaq kimi sadədil, dahi kimi duyulmaz,
Dost əliylə döyülər, külüng ilə oyulmaz,
Dərisindən soyular, inamından soyulmaz,
Karvan çəkməyən dərdi tək çəkən, Xəlil Rza,
Bu dözümdə, bu ruhda təkcəsən, Xəlil Rza!

Daha sənə fərqi yox o yaxşılıq, yamanlıq,
Sözün yolu əbədi, ömrün yolu bir anlıq.
Sənə ünvan verdisə böyüdü qəbristanlıq,
Gülüncləri özünə güldürən, Xəlil Rza
Ölümüylə ölümü öldürən, Xəlil Rza!

Ürəyini sıxardı bu xırdalar dünyası,
"Şəngülümün, həpəndin" qafası dar dünyası,
Düşmənə fürsət verən vaxtın murdar dünyası,
Dünyanı qələmində firlayan, Xəlil Rza.
Okean tək qabaran, gurlayan Xəlil Rza!

Turan çələngi hördün Türküstanın səsindən,
Altaydan Ağ dənizə yürüşlər həvəsindən,
Azadlı ruhun uçdu ömrün dar qəfəsindən,
Odum, odqoruyanım, Ulutürk Xəlil Rza,
Ölümündən doğulan, ey böyük Xəlil Rza!..

YADLIQ

Nə zaman başlandı ögeylik axı,
Özgənin arxına axanlar ilə.
Mənə öz asdığım çıraq sayağı
Üstən aşağıya baxanlar ilə.

Bu duyğu dilimdə sözümü təklər,
Ruhumu taxtından devirmək istər.
Dünyanın üşüdən soyuq küləklər
Altımı üstümə çevirmək istər.

Elə bir şaxtalar içimdən keçən,
Damarı qurumuş budaqlarım yad.
Qorxusa ruhuma qeybdən köçən
Yad ayaq altında torpaqlarım yad.

Kiməsə taxtından düş deməmişkən,
Hətta toyuğa da kiş deməmişkən,
Qılıncı boynumda itiləyən yad,
Əvvəl qardaş kimi irəli verib
Sonra da quyuya itələyən yad!

Axır iç üzünü görmüşəm deyən,
Ölümə çağırır o "munis" səslər.
Gözümün yaşını silmək istəyən
Basıb gözlərimi çıxarmaq istər.

Əskim tüstülüdür mənim deyəsən,
Ya da çörəyimin duzu yox imiş.
Mənə əl açanda titrəyib əsən
Şirə çevriləndə nə soyuq imiş!

Suallar, cavablar hamısı mənim
Min bahar göyərir bir budağımdan.
Dözərəm dünya da olsa düşmənim,
Qorxuram özümə yad olmağımdan!

BİR ÖMRÜ ƏRİTDİK

Bir ömrü əritdik
qürbət yollarına bənzər
kirayənişinlik yollarında.
Bir ömrü də ola
sürgün yolları üçün!
Bir ömrü Şimalın
əyləncəsi aldı,
Bir ömür də gərək
Cənubun açıq qolları üçün!

Bir ömrü itirdik
mələk qızların
görüşlərində.
Dünyanı unudub
Əylənib-gülmək asan...
Bir ömür də ola
kimsə görüşünə gəlməyə,
həsrətdən yazasan!

Küçəyə, bazara,
dəniz sahilinə, arx qırağına,
bir evin təsəlli kimi
sübhədək sönməyən çilçırağına,
yad elə, yad evə, özgə səslərə,
kəşfiyyat aparan gur həvəslərə
qarışan anlarım, itən anlarım
Mənə yananlarım, aldananlarım...
Sevgi yalvarışı...
ayrılıq yaşı.
Daşı bir ömürdə bu yükü, daşı!..

Bir ömrü xərclədik
səxavət ilə –
Cənub qurumuz "qalıq" istəməz.
Buyur, həyatımın bir ayı sənin,

Ay xanım, istəsən ürəyimi kəs...
Hər külün yanında düşərgə saldıq,
Məhkumduq vaxt çəkən hər ahı sevək.
Allahın dünyasın sevdik doyunca,
Bir ömür də gərək Allahı sevək!..

1994

TƏNHAYAM, TƏKƏM

Necə ki dağların lal çığırıyla
Yol aldım, qarşıda sirli gələcək,
Halını pozmadı səbrli kəndlər
Halını pozmadı o daş, o çiçək...
Bir kasıb atanın, kasıb ananın
Tənbehə bənzəyən nazını görmüş
Hər payız qoşulub durna səfinə,
Sonra da qaranquş yazını görmüş,
Eləcə qalmışam... Qırx yaşında da,
Yolların çəkilməz yükünü çəkən,
Sorağı dillərlə...
tənhayam, təkəm!

Tanınmaz yaşayan dadlı bulaqlar
Verər nəğməsini çaya beləcə,
Min-min çiçək açar, göz tamarzısı,
Ətrini dünyaya yayar beləcə,
Bir yarpaq açılar, bir yarpaq solar.
Hətta ağac duymaz, budaq titrəməz,
Qaya ovxalanar dağlar döşündə
Yalvarıb zamana asta ol! – deməz...
Bir yarpaq ömrüdü, bir daş ömrüdü,
Bir budaq ömrüdü ömrümüz bəlkə.
Zamanın ovcunda qum dənəsi tək
Nə qədər sıxılsam...
tənhayam, təkəm.

Siz də beləsiniz, elə baxmayın,
Çiynində sevgili çiynini duyan.
Körpə əllərini əlac yerinə
Hər səhər ümidlə alnına qoyan,
Bəzən bir avaza, bəzən bir sözə
Minimiz köklənib birdən qalxsaq da,
Bir canam, bir ruham, millətəm deyib
Bir haya sıçrayıb yerdən qalxsaq da,
Hərəmiz bir ayrı nar dənəsiyik
hərəmiz dərdini ayrıca çəkən...
Sizdən bircə anlıq ayrılmasam da,
Sizin aranızda –
tənhayam, təkəm!

DÜNYA DİLİ

Adamlar dilimi bilməyən yerdə
Torpağa baxıram, daşa baxıram.
Ağaca baxıram, quşa baxıram,
Ulduzlar – gözümü göylərdən asan,
Sulara deyirəm sözümü asan.
Onsuz da göy dili hər yerdə birdi!
Meteor yağışı, ildırım səsi...
Onsuz da nə vaxtsa təbiət olub
İnsanın insanla tərcüməçisi.

Milyonlar əl açır bir oda doğru,
Bəlkə yerin dili çörək dilidi?
Səssiz pıçıltısı hamıya doğma
Dünya tərcümanı – çiçək dilidir!
Zirvələr arzunu yığır bir yerə,
Məzar daşları var ömrün nidası,
Ən uzun beytimi göy kitabında
Ölkədən ölkəyə durnalar yazır!
Köhnə vurğunuyam dan işığının,
Sübhün bir teli də məni yandırır.

Günəş-kainatın dil öyrədəni,
Hər yeri eyni cür işıqlandırır.
Dəyişməz sevgimdi yaz yağışları,
Gah isti, gah soyuq əsən küləklər.
Hər yerdə qəfildən kəsib yolumu
Dost kimi üstümə töküləcəklər.
Qayanın mamırı, suyun qırçını,
Durnanın lələyi, yolun daşıyam.
Mən dünya dilini bildiyim üçün
Yerin şair adlı vətəndaşıyam.

ÖLÜMÜNÜ UNUDAN KİŞİ

1937-ci ili vicdan ləkəsi ilə
keçənlərdən yaşayanlar var.

Çaşıb ölümünü unudan kişi,
Səni bu dünyada yalqız görürəm.
Ömrünün dəyişkən havadarından
Üzülmüş görürəm, halsız görürəm.

Çoxdan unudulub ilham köhləni,
O sevdalı illər, o coşqun həvəs.
Bir çiçək mehrinə silkələnəni
İndi fırtına da tərpədə bilməz.

Gözündə keçmişi gəzirəm sənin,
Üzümə min sirrin pərdəsi baxır.
Sən kimsən? Ruhunu itirən bədən,
Ya incik vicdanın uzaq sorağı...

Ya yollar üstündə qoruyan bulaq,
Su kimi axmısan, izin qalmamış.
Ən doğru sözləri demək çağında
Bir kəlmə qeyrətli sözün qalmamış!

Fikrində qarışıb keçmiş, gələcək,
Günəş də gözündə kölgəli kimi.

Yaddaşsız qəfəsdə bir bülbül ürək
Ölü nəğmələrin heykəli kimi!

Çaşıb ölümünü unudan kişi,
Xatirən boynunda kəfən görmüşəm.
Niyə bu səfərdən qalmısan belə,
Ölümü şairi sevən görmüşəm!

Ölüm gəncliyini sevir şairin,
Nə dünyaya sığan, nə sözə yatan.
Otuza çatmamış, qırxa çatmamış
Dünyanı qazanıb köçür dünyadan.

Cavanlar ölümə tər çiçək kimi,
Acıdı əlinə toxunan tikan.
Hətta ölümü də duz-çörək kimi
Üzü açıqlıqla qazanmalısan!

Sanırdın bu şöhrət yolları itməz,
Qəbrin də qranit bitirməlidir.
Şair ölümünün dalınca getməz,
Ölümü dalınca gətirməlidir.

Bu qəfil çağırış əbədi arzu,
Min dəfə sınanıb, sınanır yenə.
Ölüm də sevinir bir mərd, bir cəsur
Kişiylə görüşün gözəlliyinə.

Nə vaxt qırılacaq bu kölgə ömrü,
Məkanın haradı bilmirəm, atam,
Sən də bu taleyi özün qazandın
Nə torpaqda bitən, nə göyə çatan...

Şükür ki, enmək də deyildir asan,
Dinlə, gör vicdanın nə deyir sənə.
Bəlkə bu bədəndə daha sən yoxsan,
Ölümdü yaşayan sənin yerinə...

1987

BİR MÜƏLLİMƏ

O kasıb oğlanı qaytardın geri,
Kükrəyən bir çayın yolunu kəsdin.
Kağızın üstündə əyri qolunla
Millətin uzanan qolunu kəsdin.

Cinayət elədin? Cinayət deyil, –
Yağlı bir dörd yazdın beşin yerinə.
Min illik binanı əydin elə bil
Bir kəsək yamadın daşın yerinə.

Bir maşın da qazan, bir mənzil də al,
Nəfsinlə qaralsın haqq çatan ocaq!
Sabah torpağına əl uzananda
Sözünü deyənin tapılmayacaq!

1987

ÖZ SÖZÜN İLƏ

Biz nə arzudayıq, həyat nə işdə...
Çay gəldi, üz-üzə oturmuşduq biz.
Yox, gərək hardasa bir son döyüşdə
Qoşa vurulaydı zərbələrimiz.

Vətən təəssübün hayanda itib,
Yad hissi ömrünə yad əlmi yazdı?
Bu torpaq çoxunu çörəkli edib,
Heyif ki, qədrini bilənlər azdı.

Baxıram, qan çəkir, tablamır ürək,
Gərək bütövləşib bir can olaydıq!
Bir məqsəd uğrunda iki qardaştək
Dar gündə, xoş gündə hayan olaydıq.

Ürəyin bir azca qızınan kimi
Bir günlük sevincdən, bir çınqı oddan;

Xırdaca rahatlıq qazanan kimi
Çıxarmaq istədin dünyanı yaddan.

Kəlmə də kəsmərik biz görüşəndə,
Gözündə özgənin odu yanırmış.
Torpaqda izimiz qoşa düşəndə
Ürəkdə yolumuz haçalanırmış!..

Yaxşı ki bu yollar uzanır hələ,
Yaxşı ki danışdım, ürək boşaldı.
Yıxıldın sən özün öz sözün ilə,
Sırada bir əsgər yeri boş qaldı!

SÖZ

Söz ki ucuzlaşıb dəyərdən düşür
Elə bil bir igid yəhərdən düşür.
Belində kəmər yox, başında papaq,
Qılıncı şəkildi, taxdadı ancaq.
İlğım səadəti, yuxu bəzəyi,
Bomboş səhrasına "cənnətim" deyir,
Sürtülür əllərdə dəmir pul kimi.
Baş əyir hamıya söz də qul kimi,
Əlinə su tökür hər ədabazın,
Nifrət əvəzinə mədhiyyə yazır.
Füzuli qovrulur öz məzarında
Sabir də halların söz bazarında
Qaldırıb ayaqdan iyrənci sözü
Qapılar dolaşan dilənçi sözü
Sürtük dodaqları dağlamalıyam,
Hər söz məzarına ağlamalıyam!..
Tarixin günahı, vaxtın suçudu,
Sözün xəstəliyi yoluxucudu.
Yurdun azadlığı sözdən başlanır,
Ürəkdən başlanır, gözdən başlanır.

30.V.1986

GİLEY

Giley xəstəliyi bürüyüb bizi,
Bu boyda məmləkət giley içində.
Umu-küsülərdən, dedi-qodudan
Asudə yer yoxdu, ölək içində.
Hamı bir-birindən gileyli gəzir,
Kişi arvadından,
arvad ərindən,
Hərə öz kəndindən,
öz şəhərindən,
Uşaq atasından, ata uşaqdan,
Torpaq əkənindən,
əkən torpaqdan,
Qeybət itiləyir, qeybət üyüdür
Dünya söz böyütmür, qeybət böyüdür!
Bütün qeybətlərə – "qardaşlıq" qəbri!
Qeybət məzarlığı çiçək-çiçəkdir.
Bu şeytan toxumu düşməyən yerdən
Ruhumuz təzədən göyərəcəkdir!

1995

DÖRD DİVAR

Qaçıram dörd divardan,
İşə getdin – dörd divar,
Evə gəldin – dörd divar.
Dörd divar arasında
Bir dünyanın dərdi var.

Ömür qutu içində,
Üstün beton, altın daş.
Beynim də çərçivədə
Dördkünc olubdur, qardaş!
Duyğularım qutuda,

Arzularım qutuda...
Qara qutuya doğru
Gedirəm yavaş-yavaş!

Həsrətəm bu dünyanın
Payızına, yazına.
Buzdan yonulub bu ev.
Könlüm çətin qızına.
Məni səsləmə, aman,
Dörd divar arasına,
Gözlərimin yasına!
Torpaqda dörd divarlı
Mənzilimiz var ikən
Bu məzar evə necə
Qapılım belə erkən?!

1991

ÖMRÜN SON LİMANI

Qocalmış bir evdə atamla, anam
Bir uzaq xəyallar, bir də özləri...
Sıxılıb bir ömrün son limanına
Dünyanın sonuncu müqəddəsləri!

Sanki su sağılıb lal dərələrə,
Dağlar qar altında, gecə qardan ağ.
Bu ilahi nuru enmişkən yerə
Dünya qayğısına kim darıxacaq?!

Yenə halal süfrə, balaca masa,
Təmizlik, əbədi ömür yelkəni.
Hətta fikrində də əyinti varsa
Bu evin havası boğacaq səni.

Ocağın daşı da tanıştək baxır,
Nə varsa – sevginin sönməz izidi.

Ucalır həyətdə bəyaz qovaqlar,
Hər ağac bir oğul xatirəsidi!

Bu balaca evdə sonsuz ucalıq,
Ömrün çiçəyi də, ömrün qarı da.
Burdadı dünyanın min bir sualı
Burdadı onların cavabları da!..

Bir işıq qardaşdı, bir işıq bacı,
Hərə bir nəğməni çaldıracaqdır,
Ulduzlar çağırır – qolları açıq,
İstəsən yanına qaldıracaqdır.

Dağlar üstümüzdə ucalıbdı ki,
Əl çəksə yaramız bitişə bilər.
Sakitlik elə bir yol salıbdı ki,
"Ah" desən Allaha yetişə bilər,

Ata – hikmətini fikrimə əkən,
Ana – ruhumuzda açan çiçəkmiş.
Dünyada bu yurdun öz sözü varkən
Ayrı söz aramaq – can çürütməkmiş!

Bu ev qürbətlərə pərvaz uçuran,
Kəsən qılıncların – susan qınıdı.
Sonuncu limanımı söylədim bura?
Bəlkə gözəlliyin ilk limanıdı?!

1993

ANAM

Dağların başında, qəm dumanında
Sirrinə sığınan qalaça – anam.

Ruhum yaşadıqca, sözüm durduqca
Sözümün canıtək qalacaq anam!

Yüz nəvə dilində adı hallanan,
Yüz evə paylanan balaca anam!

Közü ürəyimdə mənimlə gəzən
Günəşin parçası – gur ocaq anam!

Zəngin sarayların böyük dərdindən
Gələrəm komana əlaca, anam!

Dünyada nə qədər yüksəklik gördüm
Bütün zirvələrdən ən uca anam!

Yurdun nəğmələri ağıya dönüb...
Sevinc laylamızı çalacaq anam!

Övlad qayğısıyla payıza dönən
Nəvə gəlişinə gül açan anam!

Dünyanın məhvəri nədir sorsalar
Min dəfə deyərəm anam, can anam!..

İyun, 1994

ANAMA ŞEİR YAZARDIM

Söz ilə heykəlini
yaratmaq olsa qəmin,
Şəklini çəkmək olsa
ən zərif düşüncəmin,
Sevgi sonsuzluğunu dilim söyləyə bilsə,
Onun kimi ağlayıb, onun tək gülə bilsəm.
Oturub anama şeir yazardım!..

Bir yurdun, bir millətin
əbədi ağrısını
Balaca sevincini,
dağlar boyda yasını –
Milyon dərdi ürəyə sığışdıran söz olsa,

Dünyanı bir baxışla
görüb duyan göz olsa –
Oturub anama şeir yazardım!..

Övladının ruhunda
gül ləçəyi olanım,
Gəlin ikən bir elin
ağbirçəyi olanım.
Ürəyim hıçqıranda səsimə hay versəydi,
Öz ulu dünyasından mənə də pay versəydi, –
Oturub anama şeir yazardım!..

Xəyalım dünyadan
yığışmır, neynim,
Ruhum bədənimə sığışmır, neynim,
Biz dünya sirrinin
südəməriykən
Olmasa atımı meydana çəkən
Oturub anama şeir yazardım!..

Min il də, əbədi hörgü sökülməz,
Min il yaz, Tanrının hüsnü çəkilməz,
Beləcə sirrinə açar bulmadan,
Ömrün sonunadək heç yorulmadan
Oturub anama şeir yazardım!..

ÖLÜM – GÖRÜŞ

Dünyanın üstündən keçdim sel təki,
Bilmirəm irəli, bilmirəm geri.
Mən kiməm? – Zamanın çəkdiyi şəkil,
Mən kiməm? – Dünyanın düşüncələri.

Tanrıya aparan ölümə sevin,
Bir bina qurulur – haqqın səsidir.
Bağlanan gözlərim bəlkə bu evin
Başqa bir dünya pəncərəsidir!..

1991

* * *

Yoluma düzülüb, qarşıma gələn
Yüz-yüz qayğıdan qabaq,
Ürəyə xoşbəxtlik qanadı taxan
Arzudan qabaq,

Çörəkdən, sudan qabaq,
Verəcəyim salamdan qabaq
Üzündəki işığı görürəm.
Əyilirəm,
qarışıram üzündəki işığa
Günün ilk şəfəqinə
baxan kimi
baxıram təbəssümünə.
Bir ümid körpüsü salıram
hər gələn günə.
Gözləməm, həsrətim,
Qayada bitən çiçək kimi
göz məhəbbətim.

1.V.1986

XOŞBƏXTLİK ADASI

Rüzgarlı bir gündə qaldıq baş-başa
Biz də bir həsrətin uzaq səsiydik.
Bir ömür yol gəlib bu günə doğru
Bir qəm dastanını bitirəsiydik.

Dünya okeantək çalxalanmada,
Bu başsız tufanda evin bir ada.
Nə yaxşı zülmətdə bir işıq yanır,
Yanır – xilaskarım olan bir adam.

Daha ayrılıqlar gülməsin əbəs,
Xoşbəxtəm öz dünyam genişsə, darsa!
Yüz-yüz tufan olsun vecimə gəlməz,
Ürəkdən tikilmiş adamsız varsa.

QAYTARA BİLSƏYDİ

Bu musiqi altında
Arasında qollarının
Ən böyük arzuma yetərək
Ölə bilərdim –
qoynunu əvəz edən,
məni bu qollar kimi
quca bilən
üç arşın yer olsaydı.

Dünyanın ən gözəl
dodaqlarından
Eşidərək dünyanın
ən dadlı sözlərini
bir xoşbəxtlik içində
yuma bilərdim gözlərimi –
gözlərinə bənzər bir ulduz
nə vaxtsa baxa bilsəydi
qəbrimə göylərdən...

Bu bal nəfəsinə
qatardım son nəfəsimi –
min il sonra da
keçə bilsəydi üstümdən
ona bənzər bahar nəsimi...
...Gəlsəydi ağılarla
Bu musiqinin bir xalı,
Mələklərin sifətində
canlansaydı camalın,
Allahın cənnəti
qaytara bilsəydi
kiçicik bir zərrəsini
bu məhəbbətin –
Yavrum, işığım, ruhum,
bir telinin hənirincə
xatirəni apara bilsəydim –
ömrün mənası kimi
sevinclə qarşılardım
Bu qaçılmaz qədəri.
Bir nəfəsə içərdim
ölüm adlı zəhəri.

28.II.1993

MƏĞLUBİYYƏT

zarafatla

Tufanı səngiyib dava-dalaşın,
Gün çıxıb, əriyib dedi-qodular.
Ancaq ayılmayıb hələ də başım,
Evdə də bir gəmi ləngərişi var.

Çox şeyi yerindən oynadıb tufan,
Tapdanan duyğular – əzik gül-çiçək.
Görünür güzəştə qalmayıb imkan,
Atışma uzanıb son güləyədək...

Dilimdə son sözüm – donmuş bir damla,
Ürəkdə nə sevinc, nə də təntənə.
Vuruşub, dalaşıb əziz adamla
Qələbə çalsan da məğlubsan yenə!..

Fikri oynadarkən evin görkəmi
Ağrılar içimdən didərkən məni
Görürəm barışıq bayrağı kimi
Tullayıb getmisən ağ köynəyini.

Mən onu qaldırıb tutdum gözümə,
Sızlayan köksümə sıxdım o ki var, –
Bəlkə gülümsəyər mənim üzümə,
Bəlkə möcüzəylə məni ovudar.

Min yol qucaqlayan zərif bədəni
Min yol nəfəsinin ətrini udan
Sənin əvəzinə oxşayır məni
Sıxılır davakar məğrurluğundan.

Görən xoşbəxtliyi kim nəylə ölçür?
Ehey, bu savaşdan ayırma məni.
Təki ağ bayraqtək araya bu cür
Tullayıb gedəsən öz köynəyini!

Tez qayıt, mən sənə "dönmə!" desəm də,
Könlüm güllələtmaz zirehdi sənə,
Qəzəbin önündə yenilməsəm də
Sevginin önündə məğlubam yenə!..

7.VI.1994

DÜNYADAN UMDUQLARIM

Bir çiçəklik gözüm vardı çəməndə,
O bir çiçəyi dolmuş gözümə
tuta bilərdim.
O bir çiçəyin ətrində
illərin ağırlığını
unuda bilərdim.

Bir nəğmələk gözüm vardı çaylarda
Mənə yol vermədiyi günlərin
ağrısını yumaq üçün.
Bir daşın üstündə
mamır kimi, ot kimi
bitib uyumaq üçün.

Bir ulduzluq gözüm vardı göylərdə
Bəxtimizin əbədi güzgüsü kimi.
Qovuşa bilmədiyim arzularımın
sonuncu təsəlli sözü kimi.
Bir pəncərəlik gözüm vardı dünyada

Bir ürəyin işığıydı
bir dünya qaranlıqla vuruşan.
Məni ayrılığa yola salandan
hər axşam yollardan məni soruşan.

Bir həyətlik gözüm vardı torpaqda
Uşaqlarımın ayağı altına sərməyə
Çiçəyini, nəğməsini,
ulduzunu, işığını qaytarıb
borcunu verməyə!..

Bir laylalıq gözüm vardı dünyada
Məni isitməyən, mənə yetməyən,
soyuq bir ocaq
Sonra kənd qırağında
gecikmiş laylasıyla
bir torpaq təpəsini yandıracaq!..

ÖLÜM DƏ BİR İŞDİ

Öləcəyəm
bu əlacsız sevgidən –
Nə olsun,
Ölüm də bir işdi.

Ancaq məni ağrıdan,
Ömrünün bu çağında
Ruhunu qırmağımdı,
Bir telinə dəyməyən,
Bir sözünü duymayan
Qansızlar arasında
Səni tək qoymağımdı...

Yoxsa ölümə nə var?!
Ölüm haqqa dönüşdü,
Evdən evə girişdi...
Xırda kəslərdən qopub
İlahiylə görüşdü!..

1992

SEVGİLİMİN ƏLLƏRİ

Hanı on altı yaşlı
sevgilimin əlləri.
Yasəmən budağıtək
üzümü qapatmağa.
Kəpənək qanadına
toxuna bilməsəm də
Titrəyişi bəs edir
bir ürək qanatmağa.
Göydən gələn işıqtək
saçımda səssiz gəzən
Əllər, həsrətim əllər,
nə yaman dəyişmisən?
Diksinib, qaçar deyə
öpməyə qıymadığım,
Bircə dəfə əlactək
Sinəmə qoymadığım
bu əllər paltar yuyan,
ət doğrayan,
yer əkən.
Ovcunda güzgü kimi
hər əzabı görükən!
Bıçaq kəsib, daş əzib...
Gündə üç yol bir acı
doyurmağa tələsib...
Damarları qabarıq,
dırnaqları sozalmış,
Bu əllərdə bir evin
qəm tarixi yazılmış.
Göylərdən gizlədilən
əllərdən gizlənməmiş.
Daş-divar əzizləyən
əllər əzizlənməmiş...
Beşik yelləyən *bu əl*,
uyudammaz ahını.
Yuyar ər paltarını,
yuyammaz günahını!..

* * *

Qaranlıq üstümə enir daş təki,
Ulduzdan ulduza gözümə yol çəkir,
Gecəni ümidlə yaşayıram ki
Üzümə işıqlı gələn danım var.

Əlləri arxayın dolanıb gəzdim,
Neçə budaq əydim, neçə gül üzdüm,
Şükür ki dünyada yaxşıdı, pisdi
Azərbaycan adlı bir ünvanım var...

TÜRKİYƏ DUYĞULARI

1. İBRAHİM BOZYEL VƏ ZEYNƏLABİDİN MAKASA

Ey, qardaşlar!
Sındırıb sınırları
Göydən düşə biləydik.
Dop-dolu ürəyimizlə
Yenə görüşə biləydik.

Keçəydik zəmilərin sonsuz sarılığından
Xilas olan kimi ilan ağzından
Yüz illik ayrılığın sızlayan yarasından!

Keçəydik keçilməz sayılan izdən,
Azaydıq yollarda sevincimizdən
Baş alıb gedəydik
bir çay boyunca

Çay qanlı qandaldı qolumdan axır
Ümidsiz gözlərin bitməz yağışı
Çaylara sığmayıb yolumdan axır.
Tilsim ki qırılıb daha fərqi yox,
Yol hansı obaya çatırsa çatsın.

Təki dost əlləri yüz il sinəmə
Dolanmış məftili çəkib qopartsın.

Baxaydım bu yerin torpağı tanış
Bulaqların suyu, kəndlərin adı,
Quşların nəğməsi,
çöllərin otu,
Tənha ağacların yarpağı tanış.

Burda dilimizin sıxıntısı yox,
Ürəkli yaşayır dilimiz burda.
Ölü duamız da yasaqlanmışdı,
Arxayın uyuyur ölümüz burda!..

Qarsın yaylaqları əriş-arğacdı
Tarixin hanası toxunmadaymış.

Orda qandallanan türklük havası
Burda hər dodaqda oxunmadaymış.

Quran de, bayraq de, ay ulduz söylə,
İnam yasağı yox, din yasağı yox.
Mən belə qürbətdən qorxuram bir az,
Vətəndə gördüyüm min yasağı yox!

Çiynimdən qanadlar cücərir deyən,
Azadlıq – ucalmaq, dərgaha çatmaq!
Qardaşlar, elə bir yerə gedək ki
Çıxsın yadımızdan geri qayıtmaq!

1987

2. İKİ ÜRƏKLƏ

Dağlardan dünyaya boylanan
minarəli köylərinlə
Dörd dənizə şəkil çəkən
mavi-açıq göylərinlə
mənə tanışsan, Türkiyə!

Bu ucundan o ucuna
evimdə gəzir kimi gəzdim.
Nə yarpağını qopardım,
nə gülünü əzdim.

Doğma üzlər gördüm
min ilin tanışı.
Mavi gözlər gördüm
işığından gözüm qamaşır.

"Annə", "baba" dedim yaşlılara,
"yavrum" dedim bəbəklərə.
Sevgi nəğməsi oxudum.
Anadoludan əsən küləklərə.

Çocuqların əlimi öpüb
qoydu alnına –
Bizdə yalnız sözdə qalıb!
Bu başından o başına
sözümün şöhrəti ucalıb.
Sıxılmadım öz dilimdə danışdığıma,
Qısılmadım özgə qapısı açdığıma.
Ürəyim əlli il öncə vurulmuş
"pan" damğalarına qapandı,
Qanıma və dilimə tapındım.
İnandım gördüyümə,
Ruhun, sözün gücünə.
Min illərin o üzündə
qoca dədələrin köçünə.
Qardaş sözünə sığmayan
divanə həsrətə,
Ağrıya, acıya, möhnətə.
Mahnından tökülən göz yaşına,
İnsanın ömrü boyu
qardaşın evində də
qürbətlə savaşına.
İnandım,
Əkinçinə, biçinçinə,

Sadə kişilərin ürəyinə,
Dostlarımın halal çörəyinə.
Süfrəyə dönmüş bayraqlarına,
Qılıncdan düzəlmiş oraqlarına,
Savaşdan, vuruşdan üzgünlüyünə,
Sözünün, andının düzgünlüyünə!

Bir məmləkət dolusu
Əzan səsləri çökdü ruhuma,
xırmanların sarı işığından keçdim.
İki qitəni qucaqlayan
yollarını oyatdım.
İkinci bir vətən kəşf etdim səndə,
Mən iki ürəklə yurda qayıtdım!..

1987

3. İSTANBULUN QIZLARI

İstanbulun qızları
Saçları qıvrım-qıvrım.
Gözlərində boğuldum
Üzümə baxma, yavrum.

Dərmənəm, çiçək deyilsən,
Sınmam, külək deyilsən,
Sən ki şimşək deyilsən
Başımda çaxma, yavrum.

Bu aman sazdan axır,
Bu duman yazdan axır.
Zaman boğazdan axır,
Su olub axma, yavrum!

Soyuq nəfəs deyiləm,
Özgə bir kəs deyiləm,

Mən dilbilməz deyiləm
Səsimdən qorxma, yavrum.

Sənsiz gülə bilmərəm,
Düşüb ölə bilmərəm,
Bir də gələ bilmərəm,
Məni buraxma, yavrum!

Ataköy, 29.X.1990

KIPRISDA İLK SƏHƏR

Saralan zəmilər sahil boyunca –
Ana laylasıtək doğma bir nəfəs.
Günəşə sərilən tənbəl ləpələr
Bir sünbül mehrini əvəz eləməz.

Bu Qarğaqılıncı, bu Sarıçiçək,
Köhnə xatirətək uzanan cığır,
Muğandan Xəzərə baş vurub sanki
İndi Ağ dənizdən qarşıma çıxır.

Burda da torağay başımın üstə
Səsindən asılıb – səsi tanışdı.
O yalqız evlərin ruh dastanını
Kövşənlər danışdı, yollar danışdı.

Dağlar sıralanıb Zəfər burnuna
Vadilər, yamaclar lapar-lapardı.
Çoxdan unutduğum uşaqlığımı
Araya bilsəydim burda tapardım.

Harda zəmi varsa – ata əlidi,
Harda ruzu varsa orda ana var!
Türkün əsgəridi hər sünbül burda
Vətən bayrağını dalğalandırar!

Aprel, 1992

GERİYƏ BİLETİN YOX

Geriyə biletin yox,
geri dönə bilməzsən.
Bu qatarla yenidən
Mənə qonaq gəlməzsən.

Gedirik, qarlı çöllər
Ağ yaylıqtək yellənir.
Hər sözün bir damla qəm
Ürəyimdə göllənir.

Daha bir də o sevinc
Qapımı döyməz mənim.
Yağacaq gecə-gündüz
Üstümə ağ kəfənim.

Sevgi dolu günlərin
Yenə də son ucu yol,
Səni əlimdən alıb
Aparır soyğunçu yol!

Saçına sancaq elə
Boynuna boyunbağı
Apar, məni də apar,
Qala bilmirəm axı!

Hamı üzü hicrana
Qatar tələsir, aman,
geriyə bilet almaq
Çıxıbdır yadımızdan...

Peredelkina, 4.I.1989

GÖYDƏN GƏLƏN QONAQ

Tel-tel ağ buludun dalından baxan
Ay kimi bu pərdə arxasında sən
İndi göydən gələn, uzaq, əlçatmaz
Dili bilinməyən qonaq kimisən.

Özgə planetin özgə adamı,
Həyatsan, arzusan, yuxusan, nəsən?
Gecə sübhə kimi yer küresində
Mənə göy dilini öyrətmədəsən!

Nə bizə bir azca yaxınlığın var,
Nə ruhun gözəllər ruhuna bənzər.
Sirli nəfəsindən mənim ömrümə
Uzaq dünyaların küləyi əsər.

Divarlar çəkilib, tavan yox olub,
İndi buludların bir qatındayam
Qolların günəşdən uzanan işıq –
Bu sirli işığın qanadındayam.

Bəlkə mələklərin böyük ruhusan
Qopmusan dünyanın ilkin çağından.
Mənim gözlərimi qapayan gecə
Yağır gözlərinin qaralığından.

Mənə min duyğunun əli toxunur,
Mənə milyon ilin sualı baxır.
Gecə pıçıltından yuxularıma
Bənövşə ətirli laylalar yağır.

Göyün də sevgisi bitə bilərmiş,
Bu gün bir ayrılıq duydum səsində.
Görünür yaşamaq asan deyilmiş
Adi adamların əhatəsində.

Özgə planetin özgə adamı,
Burda qanad qırıq, duyğular dardı.
Kimi inandıra biləcəyəm ki
Bir vaxt göydən gələn qonağım vardı.

Peredelkino, 4.I.1989

EHRAM

Mən
bu gün
insanın
ilk həqiqətə
ən yaxın olduğu
bir yerdə dayanmışam
Yerdən aldığı güc kimi
bu güllələr yığır fikrimi
sıxıb-sıxıb bir nöqtəyə döndərir.
Sonra da dünyanın bizə görünməyən
əbədi bir yoluyla Tanrımıza göndərir.
Ehram deyil Allah dərgahına yüksələn
müqəddəs pilləkəndi. Bacaranlar çıxacaq
o zirvədən Tanrı görünməsə də tapacaq həqiqəti
Bu ehramı ucaldana Allah kimi baxacaq...

Qahirə, 19.I.1992

DÜNYANIN AÇARLARI

Dünyanın keçmişi, gələcəyi bir,
Hardasa başlanır, hardasa bitir.
Çox yollar gəlmişik, gedəcəyik də,
Birdən tapılmışıq itəcəyik də,
Ha düşün-düşünmə dəyişən deyil,

Sirrindən bizlərə pay düşən deyil.
Torpağa baxıram üzümə gülür,
Nəyi bilmirəmsə bu torpaq bilir.
Göylərə baxıram göz vurur mənə,
"İstəsəm yüz düyün açaram sənə"...
Nə sirr verəndilər, nə düyün açan
Beləcə dünyanın axırınacan.
Hər gün ağıl artır, sorğu çoxalır,
Yoxumsa bir yerdə ilişib qalır.
Orda yol qırılır, pərdə qapanır
Tanrının qırmızı işığı yanır.
Ordan o tərəfdə qalın bir divar –
Nə xəyal işləyər, nə arzu çatar.
Ancaq ki köklərim canlıdı orda,
Yerlərim, göylərim canlıdı orda.
Kim gəlib, kim gedib nələri durur,
Üzümə ölməzlik həniri vurur.
Orda ünvan bəlli, açılır yazı,
Nə vaxtsa bağladıq öz qapımızı.
Adla o qapını, kökünü tanı,
Di gəl itirmişik açarlarını.
Milyon uydurma de, milyon kitab yaz,
Açarı olmasa qapı açılmaz.
Haqqın dərgahından baş alıb gələn
İzimiz qapının o üzündədi,
İndi hər dodaqdan yalan göyərib
Düzümüz qapının o üzündədi.

Çox olub Allahdan səda eşidən,
Səs gəlib, ey insan, özünü tanı!
Kimsə kimliyini anlaya bilməz
Tanımasaq dünyanın açarlarını!

İskəndəriyyə,
23.I.1992

VƏTƏNİ ÜÇÜN DUA EDƏN QIZ

Dehlidə tərcüməçi işləyən gənc, gözəl bir azəri qızı oteldə bizdən gizli namaz qılırdı, hər dəfə də Vətəni üçün dua edirdi...

Yerdən çiçək kimi doğulmalıykən
Anadan olmusan.
Bulaq kimi oxumalı,
Quş kimi uçmalıykən
İnsan olmusan.

Ayağın torpaqda – torpağa dəyməz,
Yarpaqtək astaca mehdən titrəyən.
Bu daş ürəklərdən qaçan gözəllik
Sənin ürəyində yurd salıb deyən.

İşığı çiçəkdən alıbdı üzün,
Duyğu heykəlisən dünyanı gəzən.
Bir az qara kişmiş, bir az ağ üzüm,
Bir az bal şanının nişanəsisən.

Balaca cismində Mələklər ruhu
Hamının yoluna sığa bilməzsən.
Köksündə ilahi sevgisi varkən
Xırda istəklərə baxa bilməzsən.

Beləcə bir parlaq səhərin nuru,
Bülbül zərifliyin şəlalə səsi.
Beləcə yurdumun uca qüruru,
Vətəndən kənarda Vətən nəfəsi.

Hərdən gecə yarı, hərdən dan üzü,
Bacı qayğısıyla yoxlarsan bizi.
Bəlkə gözmuncuğu, Quran ayəsi...
Yad eldə toxunmaz saxlarsan bizi!..

Dehli 1994

BAKI QƏBUL ELƏMİR

Ömrümün sonu gələ qəzada, – istəmirəm,
Bu ölüm yox, zülümdü, cəzadı, istəmirəm!
Gərək qapını döyə elçiləri son anın,
Ola öz ölmünü qarşılamaq imkanın.
Xofuyla, qorxusuyla biləsən kimdi, nədi,
Əzrayıl bizim üçün nə belə divanədi?..
Oturub yol üstündə söz deyib, kəlmə kəsək
Sonra da arxasınca haqq evinə tələsək...

Nə dənizdə, nə göydə, gəlsin torpağın üstə,
Yarpaqların səsini eşidim son nəfəsdə.
Görüm ki, başım üstə yenə ucadı dağlar,
Bir kənd yolu xəbərsiz, xatirəmi soraqlar
O qızıl qayadandı üstümə dikilən daş,
Gizli göz yaşı axır ürəyə yavaş-yavaş...

Gələ, fürsət gəzmədən, vaxtında, kişi kimi,
Ölümə əl uzadam, növbəti işim kimi!..

Yanvar, 1992

ZAMAN MƏNDƏN KEÇİR

Zaman məndən keçir, keçir durulur,
Ürəyim əbədi sevgi süzgəci,
Sevgi ürəyimdən keçir durulur.
Günəşin işığı, ayın işığı
Qayğılı gözümdən keçib durulur.
Fikir burulğanı dağ çaylarıtək
Sıxılmış sözümdən keçib durulur.
Nəyi saxlamadım, nəyi saxladım? –
Dəyir sınaqların zərbəsi mənə.
Keçirtdim tarixi əsəblərimdən,
Dünənlə sabahın körpüsü mənəm!

Bitmişəm yer ilə göy arasında –
Bu süzgəc ilahi iradəsidir.
Kimsə eşitməyən nəğmələr keçir.
Ulduz pıçıltısı, duman səsidir.
Keçir ürəyimdən millətin ruhu.
Bir üzü ucalıq, bir üzü qorxu.
Min ilin qanıdır – içimdə diri,
Dünyada kim ölür? Yaddaşı itən!
Ürəyim bir qaçqın düşərgəsidi,
Keçir körpələrin göz yaşı məndən.
Keçir yüz illərin məğlubiyyəti,
Üç qitə yolunda ayağım yorğun.
Vətən güclüdürsə, ucadı bayraq,
Vətən çəkiləndə bayrağım yorğun...
İlk nədi, son nədi – ürəyim duyur.
Keçmişə yol alan köçürmüş məndən.
Zamana qoşulub bir ömür boyu
Tanrının özü də keçirmiş məndən.

1995

Məncə, o şey ki, təbii şəkildə aradan çıxır onu zorla qoruyub saxlamaq olmaz. Keçmiş formalar nə vaxtsa öz işini görüb qurtarır; yeni silah tapılanda köhnələr qiymətini itirir. Forma da paltar kimidir, köhnələndə atılır. Ola bilsin ki, bu köhnə paltar sənə çox yaraşırdı və heç bəlasini tapmaq olmayacaq da! Amma nə etməli?

Şer öz zamanına bənzəyir. Keçmişin şeri keçmişə, indinin şeri indiyə.

Əsas ifadə forması deyil, ifadə olunandır. Keçmişdə görüşə at üstündə, arabada gedirdilər, indi maşınla gedirlər, görüşə apuran duyğunun mahiyyəti isə dəyişilməyib...

TORPAQDADIR

Bir pərdəyəm tardan gizli,
Bir istəyəm yardan gizli...
Göydən gizli, yerdən gizli
Sirrim bu ağ varaqdadır.

Hücum çəkir üstümə qəm,
Düşünürəm kimsəm, nəyəm?
Ürək deyir: yaxşı nəğməm
Qorxma, hələ qabaqdadır.

Ayrılıqdan olmaz doyan,
Tale deyər di yan, di yan...
Araz axır sirri bəyan,
Nalələri dodaqdadır.

Haqq yolunda sın, armı heç,
Dost da dostu sınarmı heç?!
Yad önündə sınarmı heç
Kimin əli yaraqdadır...

Düz sözümdən sıxılmaram,
Dərd oduna yuxalmaram,
Hər tufana yıxılmaram,
Köküm ana torpaqdadır!

1973